Gürcüstanda seçicil rin sayı 3,5 milyondan çoxdur

Yazan
22.10.13 21:52 -

Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) mətbuat xidmətinin rəhbəri Yekaterine Azaraşvili bildirmişdir ki, oktyabrın 27-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar seçici siyahıları dəqiqləşdirilmişdir. Ölkə üzrə 3 milyon 537 min 719 seçici qeydə alınmışdır.
MSK-nın məlumatına görə, xarici ölkələrdə açılmış 52 seçki məntəqəsində 48458 Gürcüstan vətəndaşı səs verəcəkdir.
Seçki bülletenləri oktyabrın 21-də Tbilisidəki 10 nəşriyyatda çap olunacaqdır. Çap prosesini MSK üzvləri ilə yanaşı, 7 qeyri-hökumət təşkilatının nümayəndəsi müşahidə edəcəkdir.